# DAŞ SƏNƏD:

## erməni öz xəyanətini özü boynuna alır...



Camal Aydın

Fransız tarixi və ədəbiyyatı üzrə adlı-sanlı türk araşdırmaçı Camal Aydın «Daşa oyulmuş xəyanət» adlı 120 səhifəlik kitabında qondarma «erməni soyqırımı»nın iç üzünü açır.

*Oxucuların yadındadırsa, «Qobustan»ın bir il bundan qabaqkı sayında Camal Aydının tərcüməsində İslamı qəbul etmiş məşhur fransız filosofu Roje Qarodinin kitabından parçalarla tanış olmuşduz. Üstündən bir il keçəndən sonra «Türk ədəbiyyatı» dərgisinin yazarlarından biri olan Camal Aydının «Daşa oyulmuş xəyanət» kitabından bəzi mətləbləri, eləcə də yazarın özü ilə qısa sorğunu dərc edirik.*

«...Fransanın bir çox şəhərlərində guya biz türklərin erməniləri qırdığını iddia edən çoxlu «soyqırım» abidələri qoyulub. Diqqətlə baxdım və türkləri arxadan vuran ermənilərin şərəfinə fransızlar bu daş abidəni ucaltmışlar və mənim gördüyüm də daşa yazılan xəyanətin bir sənəd-sübutu imiş. Per-Laşez məzarlığına diklənmiş daşda baxın görün nə yazılıb: **«Fransız Ordusunda 1914-1915/1939-1945-ci illərdə Fransa uğrunda ölən ermənilərin xatirəsinə».**

Birinci dünya müharibəsinin başlandığı illərdə, yəni 1914-1915-də ermənilər fikir verin görün, hansı cəbhədə fransızlarla çiyin-çiyinədir? Bu sualın cavabı daşın o biri üzündə həkk olunub: **«Suriya, Livan, Kilikya (Karaman və Konyanın güneyini, Antalyanın şərqini əhatə edən bölgə), Musa Dağı, Haçın (Saimbəyli), Adana, Ararat (Ağrı dağı) savaşı, Maraş, Ayıntab (Qaziantep), Qafqazlar, Sərdarabad, Selanik, Manastır, Çanaqqala».**

Təbii ki, bütün erməniləri ümumiləşdirmək olmasa da, amma guya «erməni soyqırımı» yapıldığını iddia edərkən ermənilər tərəfindən qətlə məruz qalan türkləri yox sayan məntiqə qarşı Per-Laşezdə qoyulan həmin abidə tutarlı bir sübutdur.

Bəzi ölkələrin parlamentlərində gündəmə gətirilən «erməni soyqırımı» iddiası və bu sahədə təbliğatın ağlagəlməz bir yalan, qorxunc bir iftira olduğunu bu kitabda ortaya gətirmişəm. Per-Laşez qəbirstanlığının Gambetta qapısından girişdə Yabançı Savaşçılar caddəsi 88-ci bölümdə yer alan Erməni bölümü 1978-ci ilin 15 aprelində təntənə ilə açılıbdır. Fransa hökumətinin xeyir-duası ilə bu daş abidə Paris ermənilərinin baş keşişi tərəfindən hətta müqəddəs də elan edilib...»

***– Camal bəy, bəs bu daş abidənin varlığından necə xəbər tutmusuz?***

– Desəm ki, bunu mənə Allah-təala rast gətirdi, sözümə inanın. Çünki o abidə barədə nə əvvəl eşitmişdim, nə də bu barədə bir kəlmə oxumuşdum. Hətta Parisi məndən də yaxşı tanıyıb bilən dostlarım belə bu abidənin varlığından mənim kitabımı oxuyandan sonra xəbər tutublar. Dəfələrlə gedib gəzdikləri bu məşhur Per-Laşez qəbristanlığında belə bir abidənin olmağından heç xəbərləri yoxmuş. Mən də bir çox məşhur insanların yatdığı, o cümlədən bəzi Müsəlman qəbirlərinin olduğu o məzarlığı gəzib görmək və öz vətənindən uzaqda, qürbətdə qalmış Müsəlmanların qəbirləri önündə Fatihələr oxumaq üçün getmişdim. Qayıdanda Allah-




təala mənə o abidəni lütf edib göstərdi. Hər halda irqçi ermənilər ilə onların arxasınca düşüb gedən, öz ata-babasını «qətliamçı» kimi görən və artıq bizə yad olan, özünə ziyalı deyən bəzi kəslərin mənliyinə qarşı duyduğum dərin üzüntüdən başım ayılsın deyə, həmin yazılı daşı görmək mənə Allah tərəfindən lütf edildi. Mən bunu belə başa düşürəm.

*– Həmin abidənin qoyulduğu yerin yəni elə bir əhəmiyyəti varmı?*

– Turistlərin və fransızların vaxtaşırı gedib gəzdikləri o qəbristanlığın özü bütövlükdə bir tarixi abidədir. Deyim ki, dünya varkən tanınmış ən azı 200 məşhur adam o məzarlıqda yatır. Odur ki, qəbristanlığın bu məşhurluğundan yararlanan fransızlar Fransa uğrunda can qoymuş bəzi millətlərə hörmət kimi bu abidələri dikəltmişlər. Amma arada bir fərq var. Başqa millətlərin şərəfinə dikilən abidələr birbaşa Fransanın qurtuluşuna yardım edən millətlərdir. Ermənilər üçün ucaldılan abidə onların Fransanın imperalist və işğalçı əməllərinə xidmət etdikləri üçün ucaldılıb. 1939-1945-ci illər üçün bir söz deyə bilmərik. Amma o abidəyə yazılan «1914-1918-ci illər «Fransa üçün Fransa ordusunda ermənilərin xatirəsinə» sözü nə deməkdi? Çanaqqalada, Maraşda və daha bir çox yerlərdə fransızların cərgəsində olmaq sözü nədi? Bu Türkiyədə yaşayan ermənilərin öz vətənlərinə xəyanəti deyilmi?

***– Çanaqqala döyüşündə ermənilərin fransız ordusu cərgəsində bizə qarşı savaşmış olduqlarını birinci dəfə bu abidədən öyrənirik. Bəs fransızlar üçün o abidə nəyi ifadə edir və fransızlar bu abidənin varlığından xəbərdardımı?***

– Mənə elə gəlir ki, fransızların o abidədən yetərincə xəbəri yoxdur. Olsa da heç təəccüblənməzlər. Çünki fransızlar türkləri hər zaman özlərinə düşmən sanıblar. Ermənilərin guya «Fransa naminə» Osmanlıya xəyanət etməklərini ürəkdən alqışlayarlar. Bir tərəfdən də, həmən-həmən bütün fransızlar biz Türklərin güya 1,5 milyon «erməni öldürdüyümüzə» sanki öz dinlərinə inanan kimi inanır və buna iman gətirərlər. Mən fransızların özünə dedim ki: – «O vaxt bizim dövlətimizdə, yəni Türkiyədə yaşayan ermənilərin sayı heç 1,5 milyon deyildi. Necə olur ki, o miqdarda olmayan ermənini biz qırmış olduq?» Mənim

bu sualımın cavabında məni laqeyd baxışlarla süzüb, heç bir cavab verməz, susarlar. O baxış və susmaqların mənası «Sənə inanmıram, qətliamçı türk» deməkdir. Çünki ermənilər ta 1890-cı illərdən bəri təkcə Fransa deyil, dünyanın bir çox ölkəsində güya erməniləri bizim qətl etdiyimiz barədə təbliğatı öz rəssamlarına, yaxud da satın aldıqları rəssamlara çəkdirdikləri tablolar ilə bu yalana inandıra bilmişlər. Sədd-heyf ki, bizim öz içərimizdən olan bəzi üzdəniraq aydınlarımız da buna canla-başla inanmışlar.

***– O illərdə ermənilərin Fransa üçün ölmələri başa düşülən olsa da, o abidədə bundan bəhs olunması qəribədir.***

– «Başa düşülür» ifadəniz o şərtlə başa düşülə bilər ki, müstəqil bir Ermənistan qurmaq üçün erməniyə Osmanlının yıxılması lazım imiş və ondan ötrü fransızlarla birləşib bizə qəsd etməkləri onda başa düşülərdi. Əks təqdirdə, bunun heç bir izahı yoxdur. Çünki sən erməni, fürsət gözləyib yüz illərlə sənə qol-qanad vermiş, onun çörəyi-suyu ilə böyümüş bir dövlətə qarşı nankorluq edirsən! Səni qorumuş bir ölkəyə xəyanət edirsən! «Bilən quş dimdiyindən düşər» deyiblər. Erməninin bu xəyanətindən o abidədə bəhs edilməsi həqiqətən son dərəcə təəccüblüdür. Hələ mən deyərdim ki, fransızların da, ermənilərin də gözlərini qan örtdüyünü, türkə qarşı nifrəti və bir yandan da heç də onların o qədər də ağıllı olmadıqlarını göstərən bir abidədir bu...

***– Sözdə «erməni soyqırımı» iddialarının daha da artdığı bu günlərdə həmin abidə bizə nə örnək verir?***

– Kitabımda ayrıca yer verdiyim Marmaduk Pikthalın (Qərbli İslam yazıçısı. orijinal şəkildə ərəbcədən gilisgəyə tərcümə etmişdir. Xristianl?qdan dönüb ?slama tapınan Piktal bir idi. Deyvid Herbert Larens, , və Eduard Morqan Forsterə görə eyni zamanda jurnalist, məktəb müdiri və siyasi-dini bir lider idi.O, İslamı qəbul etməyini qərbində yerləşən ə və Müsəlman Ədəbi Cəmiyyətində «İslam və Tərəqqi" haqqında danışandan sonra təntənəli şəkildə elan etdi – red.) unudulmaz sözü yada düşür: «Osmanlı dövlətinin çökdürülməsi üçün gerçəkləşən və ardıcıl buna cəhd edilən bir çalışmaya tarixdə çətin ki, rast gəlinə». Bu ifadədəki Osmanlı dövlətinin yerinə indi siz rahatlıqla «Türkiyə Cümhuriyyətini» qoya bilərsiz. Çünki qərblilər tərəfindən biz Müsəlman



türklərinə qarşı aparılan xaçpərəst kini qapalı şəkildə də olsa hər vaxt davam etdirilir. Misallar çəkməyə heç bir lüzum yoxdur. Gerçək həyatda ölkəmizə qarşı oynanan oyunları hər gün öz gözümüzlə görür, qulağımızla eşidirik.

***– Sizin kitabınızda dünyada məşhur olan şəxsiyyətlərin, eyni zamanda adlı-sanlı bizim öz tarixçilərimizin də fikirləri söylənir...***

– Bir hadisəni danışım. Tanınmış professor-doktor İsmət Giritli İtaliyada çağırılan bir konqresə gedir. Həmin konqresdə bir yunan və bir erməni professoru da varmış. Onlar hər günorta yeməyində Giritlini təngə gətirir, deyirmişlər ki, - «Siz türklər 400 il-800 il bizi əzmisiz».

Axırda professor Giritli dözmür və konqresin təşkilatçısı olan italyan professoruna vəziyyəti danışır. İtalyan professor, - «Eləsə bu gün bir yerdə nahar eləyək» - deyir. Yenə nahar vaxtı yunan və erməni professorlar İsmət Giritliyə girişib onu təhdid eləyirlər. Bunu eşidən italyan professor yunandan soruşur:

– «Siz neçə il Türklərin əsarətində olmusuz?

– 400 il.

– İndi hansı dildə danışırsınız?

– Yunanca.

– Dininiz nədir?

– Pravoslav.

İtalyan professor sonra üzünü erməniyə tərəf döndərib soruşur:

– Bəs siz neçə il Türklərin əsarətində qalmısınız?

– 800 il.

– İndi hansı dildə danışırsız?

– Ermənicə.

– Dininiz hansıdı?

– Grigorian xaçpərəstiyik.

– Elə isə dediyimə diqqətlə qulaq asın. Əgər siz 200 il italyan əsarətində qalsaydınız, indi ikiniz də italyanca danışırdız və ikiniz də dininizi dəyişib katolik olmuşduz. Elə ona görə də özünüzü və mədəniyyətinizi mühafizə etdikləri üçün durub-oturub Türklərə «sağ ol» deməlisiniz!

***– Vaxtilə məşhur fransızların bəziləri ermənilərin bu iftirasına biganə qalmayıb.***

– Bəli. Məsələn, məşhur fransız ədibi Piyer Loti bu mövzudakı görüşlərində qondarma «erməni soyqırımı» haqda belə deyir: - Mən «erməni soyqırımı» barəsində lazım olan həmən-həmən hər şeyi oxuyub öyrəndim, bu məsələni diqqətlə araşdırdım. Fikrim budur: Əslində qırğınlar qarşılıqlı olub. Türk qonşularını yüz illərdən bəri son dərəcə alçaqcasına istismar edən və utanıb-qızarmadan türklərə iftiralar yağdırıb, Türkiyəyə qarşı Qərb fanatizmini də təhrik etmək üçün özlərinin xaçpərəst olduğunu daima gözə soxan bu ermənilərin şikayətlərində ağlasığmaz bir şişirtmə vardır». (Pierre Loti, 1920-ci il dekabr, Fransa Xarici İşlər nazirliyinə yazdığı açıq məktubdan).

Bu gün Serbiya, Bolqarıstan, Yunanıstan, Rumıniya dövlətləri mövcuddur. Əgər Osmanlılar onları xaçpərəst ölkələrin apardığı və bizim görüb-bildiyimiz soyqırıma mübtəla etsəydilər, indii saydığım xalqlar 19-cu əsrdə ortaya çıxıb öz dövlətlərini qura bilməzdilər. Çünki Osmanlılar heç vaxt heç yerdə Türkləşdirmə, İslamlaşdırma siyasəti aparmayıb».

Bəli, biz Türklər həm katoliklər, həm ortodoks xaçpərəstlər tərəfindən qısqırdılan ermənilər Osmanlının yürütməyə qadir olduğu müsəlmanlaşdırma siyasəti ilə tarix səhnəsindən bilmərrə silinərdi. O ucbatdan əslində ermənilər tarix boyu çörəyini yeyib, suyunu içdiyi Osmanlıya «sağ ol» demək əvəzinə bu xəyanəti yapmışlar və indi də yapmaqdadılar. Nə yaxşı ki, dünya bu qondarma erməni siyasətini başa düşür, daha doğrusu, xalqların bəziləri ermənilərin bu yalanından artıq bezibdir...